# Xüsusi qayğılı uşaqlara diqqət

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi 31 Dekabr—Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə ofisdə tədbir keçirmişdir. Tədbirdə xüsusi qayğılı uşaqlar, onların valideyinləri və qonaqlar, cəmi 55 nəfər iştirak etmişdir.

Tədbiri giriş sözü ilə mərkəzin direktoru Rəna Mahmudova açmış, görülmüş işlərdən danışaraq qeyd etmişdir ki, 2012-ci il mərkəzimiz üçün uğurlu il olmuşdur. 2012-ci ildə xüsusi qayğılı uşaqlar üçün 4 ədəd əlil arabası gətirilərək onlara təqdim edilmiş, yay ərzində xüsusi qayğılı uşaqları olan 5 ailənin yay istirahət düşərgəsində 5 günlük istirahəti təmin olunmuşdur. 3 nəfər rəssam uşaq öz əsərləri ilə ilkin olaraq İsmayıllı rayonunda «Yarat Art» layihəsində, sonra isə Bakı şəhərində «Yarat Art» layihəsinin yekun mərhələsində rəsm əsərləri ilə iştirak etmişdir. Sərgiyə baxışdan sonra satış sərgi keçirilmiş, sərgidə uşaqların əsərləri satılmışdır. Satışdan əldə edilən vəsait rəssam uşaqlara Yeni il tədbirində təqdim olunmuşdur.

Çıxışının sonunda R. Mahmudova xüsusi qayğılı uşaqları və onların valideynlərini Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etmişdir. Sonra söz aparıcılara verilmişdir.



Tədbirdə xüsusi qayğılı uşaqlarla bərabər şəhər 1 saylı məktəbin 4 «b» sinif şagirdi Şıxməmmədova Jalə, 3 «c» sinif şagirdi Banuçiçəklə cücələrim rəqsini, Vəndam qəsəbə 1 saylı məktəbin şagirdi Aslanlı Ağaxanla Banuçiçək bal rəqsini ifa edərək tədbiri daha da canlandırmış, xüsusi qayğılı uşaqlarla əylənmişlər. Tədbirdə şəhər 1 saylı məktəbin 9 «a» sinfinin şagirdlərindən Aytən, Aytac, Nazlı, Ülkər və Jalə iştirak etmiş, Səmra Abdurahmanlı kamançada ifa etmiş, Şaxta baba və Qar qızla birlikdə uşaqları əyləndirmişlər.

Tədbirdə Zarağan İnzibati Ərazi Nümayəndəsinin müavini S. Əhmədova, QHT Resurs Təlim Mərkəzinin əməkdaşı Şəmsiyyə Əzimova, valideyin şurasının üzvləri və icma üzvləri də iştirak etmiş və uşaqlara Yeni il arzularını bildirmişlər.

**A. ABDURAHMANOVA,**
**Qəbələ UADM-in metodisti.**

# Yeni ilə

Xoş xasiyət, şirin olsun dilimiz,
Yeni ili bayram edir elimiz,
İlan ili olub bu il ilimiz.
Uğurludur bu ilimiz baxanla
Yaxşı rəftar biz eyləyək ilanla.

* * *

Heç bir ürək qoy olmasın qəhərli,
Fərqi yoxdu kəndli, ya da şəhərli,
2013 təki olsun düşərli.
Qoy insanlar işini görsün planla,
Yaxşı rəftar bir eyləyək ilanla.

* * *

Bol-bol olsun süfrələrdə ruzilər,
Kaş çin olsun ürəklərdə arzular,
Xoşbəxt olsun sevən oğlan və qızlar.
Qoy könüllər sevməsinlər yalanla,
Yaxşı rəftar biz eyləyək ilanla.

* * *

Çiçək açsın, gözəl olsun baxça-bağ,
Çəmən olsun dərə-təpə, bir də dağ,
Sülh yoluynan azad olsun Qarabağ.
Babalarımız yumazdılar qanı-qanla,
Yaxşı rəftar biz eyləyək ilanla.

* * *

Birinciyik ölkələrdə idmanla,
Muğamatla, həm də tarla- kamanla,
Gələcəyə addımlarıq vüqarla.
Nəbzin tutub biz gedirik zamanla,
Yaxşı rəftar biz eyləyək ilanla.

**Elçin ƏHMƏDOV,**
**Bəyli kəndi.**

# Yanvar faciəsi tarixi qəhrəmanlıq salnaməsidir

Qanlı 20 Yanvar faciəsindən 23 il keçir. Bu hadisədən min illər ötsə də, 20 yanvar gecəsi sovet ordusunun törətdiyi soyqırımı xalqımız heç vaxt yaddan çıxarmayacdır. 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən şənbə gecəsində Mixail Qorbaçovun göstərişi ilə sovet əlahiddə ordusu Bakıya soxuldu. 70 il bizə xalqlar dostluğundan, humanizmdən, sülhdən dərs keçən imperiyanın ordusu qocaları, qadınları, uşaqları bir sözlə əliyalın dinc insanları qətlə yetirmiş, yaşayış binalarını, sosial obyektləri dağıtmış, nəqliyyat vasitələrini tanklarla əzib yerlə-yeksan etmişdi. Bakı şəhərində gərgin vəziyyət yaratmışdır. Tankların tırtılları altında əzilən, avtomatlarla qətlə yetirilən adamların tanınmaz hala düşmüş meyitləri insanlarda qəzəb və nifrət yaradırdı. Bu faciəli hadisələr fövqəladə vəziyyət elan edilməmişdən əvvəl baş vermişdir. Bakı şəhərində fövqəladə vəziyyət yanvar ayının 20-də səhər elan edildi. Fövqəladə vəziyyət elan edildikdən sonra paytaxtda bütün dövlət hakimiyyəti komendanta verildi. Komendant saatı tətbiq edilməsi nəqliyyat vasitələri, gediş-gəliş, pasport rejimi üzərində nəzarəti gücləndirdi. Fövqəladə vəziyyətin elan olunduğu vaxtın gizli saxlanılması əvvəlcə planlaşdırılmışdır.

Hətta Azərbaycanda yaranmış belə gərgin vəziyyət barədə xalqa məlumat verən mətbuat, radio, televiziya vasitələrinə də komendant nəzarət edirdi. Xalqın etiraz səsini dəstəkləməyə, respublikanın səriştəsiz rəhbərliyini və imperiyanın qəddar siyasətini ittiham etməyə böyük ehtiyac var idi. Xalqımızın bu ağır günündə, 1990-cı ilin yanvar ayının 21-də Azərbaycanda yayılan sensasiya xarakterli məlumat respublika ictimaiyyətini əməlli-başlı silkələdi, onlarda vəziyyətdən çıxmağın mümkünlüyü haqqında inam yaratdı, azadlıq, müstəqillik uğrunda mübarizəni davam etdirmək əzmini möhkəmləndirdi. Az sonra məlum oldu ki, həmişə xalqına, vətəninə sədaqətlə xidmət edən Heydər Əliyev İlham Əliyevlə birlikdə faciənin ertəsi günü, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib sərt bəyanat verib. Mərkəzin təzyiq və təqiblərinə baxmayaraq Moskvanın tən ortasında heç kimdən çəkinmədən sovet rəhbərliyini, onun vəhşi ordusunu ittiham edib, faciəyə prinsipial qiymət verib, xalqımıza mənəvi, siyasi dayaq durub, onu yeni qüvvə ilə mübarizəyə çağırıb. O günlərdə bütün səlahiyyətlərindən uzaqlaşdırılmış, xüsusi xidmət orqanlarının nəzarəti altında yaşayan Heydər Əliyev şəxsi həyatını təhlükə qarşısında qoyub, hərbi müdaxiləyə məruz qalmış doğma xalqının harayına çatdı, onun səsinə səs verdi, kədərinə şərik oldu, ona başsağlığı verdi, bütün cinayətkarları ittiham etdi.

Bəli, 20 Yanvar faciəsinə ilk obyektiv, prinsipial və cəsarətli qiyməti Heydər Əliyev verdi. İmperiyanın şovinist siyasətini dövləti cinayət adlandırdı, beynəlxalq ictimaiyyəti hərbi təcavüzü pisləməyə çağırdı. Aydındır ki, Heydər Əliyev bütün təhlükələrə məhəl qoymadan 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi üçün təşəbbüslə çıxış etdi və şəxsən özü hazırladığı sənədi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdi. Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan sənəd əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin noyabr ayının 21-də Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi haqqında qərar qəbul etdi. Bu tarixi qərarda 20 Yanvar faciəsində günahkar olan yüksək dövlət məmurları ittiham edilmiş, onların konkret adları göstərilmiş, hər birinin xalq qarşısında məsuliyyət daşıdığı qeyd edilmişdir.

20 Yanvar faciəsinə respublika miqyasında hüquqi-siyasi qiyməti də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hadisədən dörd il keçəndən sonra verildi, onun mahiyyəti açıldı, günahkarların, xəyanətkarların adları açıq-aşkar, cəsarətlə dəqiqləşdirildi və ittiham edildi. Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra təklənən, əli heç nəyə çatmayan, xalqın qəlbində ümid çırağı yandı. Xalq doğma oğlunun—Heydər Əliyev kimi nəhəng dünya siyasətçisinin öz yanında olduğunu görüb ürəkləndi, cəsarətləndi, Azərbaycan xalqı özünün bütövlüyünü, sarsılmazlığını bir daha təsdiq etdi.

Xalqımız o müdhiş gecədə canını vətən uğrunda fəda edən insanları heç vaxt unutmur. Həmin hadisələr zamanı əlil olanlar və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub. 20 Yanvar faciəsi zamanı zərər çəkmiş insanlar dövlət başçımız Prezident İlham Əliyevin daim diqqətindədi və onların bütün problemləri vaxtında həll olunur.

20 Yanvar faciəsindən sonra sovet ordusunun fəal iştirakı ilə Dağlıq Qarabağın 168 azərbaycanlı yaşayış məntəqəsinin işğalı başa çatdırıldı, yüksək səlahiyyətli hərbiçilərinin göndərdikləri havadan müdafiə qurğularının köməyi ilə vilayətin hava məkanı blokadaya alındı. Ağdam—Şuşa—Laçın magistralı Əsgəran yaxınlığında iri-həcmli dəmir-beton piltələrlə bağlandı, mühasirədə olan soydaşlarımızı köçürmək üçün havaya qalxan mülki təyyarələr və vertolyotlar vuruldu. Azərbaycanın 19 nəfər görkəmli dövlət xadimi, jurnalistləri aparan vertolyot partladıldı. Beləliklə sovet hərbi hissəsinin fəal iştirakı ilə Dağlıq Qarabağın bütün azərbaycanlı yaşayış məntəqələrini, Şuşanı, Laçını işğal etmək planı reallaşdırıldı, Ermənistan—Dağlıq Qarabağ dəhlizi açıldı və son nəticədə ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsinə və bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşməsinə gətirib çıxardı.

Lakin səbrin də həddi-hüdudu var. Xalqımız öz problemlərini həll etməyə, onun torpaqlarına göz dikənlərə cavab verməyə qadirdir. Tezgec öz torpaqlarımızı düşmən tapdağından azad edəcəyik.

**Aslan CƏLİLOV.**